# Yalnız orucun qəzasının vacib olduğu hallar - 25 /Mar/ 2024

**Məsələ 901. Əgər bir şəxs Ramazan ayında oruc niyyəti etməsə, yaxud riya ilə oruc tutsa, yaxud da oruc tutmamaq niyyətində olsa, amma orucu pozan işlərdən heç birini yerinə yetirməsə, həmin günün orucunun qəzasını tutmalıdır, kəffarə isə vacib olmur.**

**Məsələ 902. Əgər bir şəxs Ramazan ayının gecəsində cənabətli olsa və 843-cü məsələdə açıqlandığı şəkildə sübh azanınadək ikinci yuxudan oyanmasa, ona yalnız orucun qəzası vacib olur. Amma məğribədək orucu pozan işləri yerinə yetirməməlidir.**

**Məsələ 903. Əgər bir şəxs Ramazan ayında cənabət qüslünü etməyi unutsa və cənabətli halda bir neçə gün oruc tutsa, ona yalnız həmin günlərin orucunun qəzası vacibdir.**

**Məsələ 904. Əgər bir şəxs Ramazan ayının sübh çağında fəcrin doğduğuna hələ yəqin etməyibdirsə, orucu pozan işləri yerinə yetirə bilər.**

**Məsələ 905. Əgər bir şəxs Ramazan ayının sübh çağında fəcrin doğub-doğmadığını araşdırmadan orucu pozan bir iş görsə və sonradan həmin vaxt fəcrin doğduğu məlum olsa, həmin günün orucunun qəzasını tutmalıdır. Amma əgər araşdırma apardıqdan və fəcrin doğmadığını bildikdən sonra orucu pozan bir iş görsə, sonradan isə həmin vaxt fəcrin doğduğu məlum olsa, ona həmin günün orucunun qəzası vacib olmur.**

**Məsələ 906. Ramazan ayında şəri məğribin olduğuna yəqinlik olmayanadək orucu açmaq olmaz.**

**Məsələ 907. Əgər bir şəxs Ramazan ayında havanın qaranlığına görə məğrib vaxtı olduğuna yəqin etsə və ya sözü şəri dəlil olan şəxslər məğrib olduğunu desələr və o da iftar etsə, amma sonradan həmin vaxt məğrib olmadığı məlum olsa, həmin günün orucunun qəzasını tutmalıdır.**

**Məsələ 908. Əgər bir şəxs səma buludlu olduğuna görə məğrib olduğunu güman etsə və buna görə də iftar etsə, amma sonradan həmin vaxt məğrib olmadığı məlum olsa, ona həmin günün orucunun qəzası vacib olmur.**

**Məsələ 909. Əgər hansısa bir səbəbə görə orucu pozmaq icazəli və ya vacib olsa, məsələn, bir şəxsi orucu pozan bir işi görməyə vadar etsələr, yaxud suda boğulan bir insanı xilas etmək üçün suya atılmaq lazım gəlsə, bu halda yalnız orucun qəzası vacib olur, kəffarə vacib olmur.**

**Məsələ 910. Əgər oruc tutan şəxs dəstəmaz alarkən suyun boğazdan keçməyəcəyinə əmin olduğu bir halda ağzını yaxalasa (belə ki, dəstəmaz alarkən ağıza bir qədər su alıb ağızı yaxalamaq müstəhəbdir) və su qeyri-ixtiyari olaraq boğazdan keçsə, bu iş vacib namazı qılmaq üçün alınan dəstəmazda yerinə yetirildiyi təqdirdə, oruc düzgündür. Amma əgər vacib olmayan namazı qılmaq üçün alınan dəstəmazda yerinə yetirilərsə və ya dəstəmazdan qeyri bir yerdə yerinə yetirilərsə (məsələn, sərinlənmək üçün və s.) və su qeyri-ixtiyari boğazdan keçərsə, ehtiyata görə, həmin günün orucunun qəzası tutulmalıdır.**

**Məsələ 911. Əgər oruc tutan şəxs bilsə ki, ağzını yaxaladığı təqdirdə su qeyri-ixtiyari olaraq və ya unutqanlıq nəticəsində boğazdan keçəcəkdir, o, ağzını yaxalamamalıdır.**